8.Рзаева Н.Р., Гулиева А.А., Рагимов А.А., Гамидова Н.А. Лабораторные показатели периферической крови, отражающие функциональное состояние печени у группы здоровых жителей г.Баку. // Биомедицина, 2006, N.3, с.34-35

9.Назаренко Г.И., Кишкун А.А. Клиническая оценка результатов лабораторных исследований. М. : Медицина, 2002

10.Кишкун А.А. Руководство по лабораторным методам исследования. М.: ГЕОТАР-Медиа, 2007

11.Мамедов М.К., Гудратов Н.О. Экспериментальная патология печени и противоопухолевая резистентность. М.: Кристалл, 2003

10.Лифшиц В.М., Сидельникова В.И. Медицинские лабораторные анализы. Справочник. М.: Триада-Х, 2007

XÜLASƏ

QARACIYƏRIN LABORATOR DIAQNOSTIKASINDA ISTIFADƏ OLUNAN ENZIMOLOJI GÖSTƏRICILƏRIN XARAKTERISTIKASI VƏ KLINIK- PATOGENETIK MAHIYYƏTI

Q.M.Bəkirzadə, N.R.Rzayeva, M.Q.Məmmədov

Icmalda qaraciyər xəstəliklərin laborator diaqnostikasında istifadə olunan enzimoloji göstəricilərin qısa xarakteristikası və müxtəlif qaracıyər patologiyaları zamanı ferment aktivliyinin ən vacib metodoloji yanaşmaları verilmişdir.

SUMMARY
CHARACTERISTIC AND CLINICAL AND PATHOGENETICAL SIGNIFICANCE OF ENZYMOLOGICAL PARAMETERS APPLICATED IN LABORATOR DIAGNOSTICS OF LIVER DISEASES
G.Bekirzadeh, N.Rzayeva, M.Mamedov
The review contains brief characteristic of enzymological parameters, which traditionally applicated in laboratory diagnostics of the liver diseases and most important methodoligical approaches to results of ferments activity quantitation at different pathology of the liver

Daxil olub:02.08.2011

YUMURTALIQ XƏRÇƏNGİNDƏ KİMYƏVİ DƏRMAN MÜALİCƏSİ. SİKLOOKSİGENAZA-2 FERMENTİNİN MÜALİCƏYƏ REZISTENTLIKDƏ ROLU

R.R.Sultan
HB Güven Klinikası, Bakı

Yumurtalıq xərçənginin rastgəlmə tezliyi 100000-də 40 olub, 50 yaşdan yuxarı qadınlarda ən çox rast gəlinən ginekoloji bəd xassəli şişdir [1]. Günümüzdə istifadə olunan diaqnostik metodlar, cərrahi texnikalar, ximioterapiya, radioterpaiya və digər müalicə metodlarındakı irəliləmələr xəstələnmə və ölüm tezliyində məhdud bir yaxşılaşma təmin etmişsə də, ginekoloji xərçənglər arasında hələ də ən yüksək ölüm tezliyi yumurtalıq xərçənginə aiddir. Bu xeyli yüksək ölüm tezliyi yumurtalıq xərçənginin diaqnostika və müalicəsi üzərində daha çox tədqiqat aparılmasının vacib olduğunu göstərir.

Yumurtalıq xərçəngi, epitelial, germ hüceyrəli və stromal olmaqla, üç histoloji qrupa ayrılır. Bütün yumurtalıq xərçəngi xəstələrinin, təxminən, 90%-i epitelial tipdədir. Epitelial yumurtalıq xərçəngi "Beynəlxalq Ginekologiya və Mamalıq Federasiyası" (FIGO) sisteminə görə mərhələlərə ayrılır. FIGO təsnifatı əməliyyat nəticəsinə əsaslanır. I mərhələdə xəstəlik sadəcə yumurtalıqlarla məhdudlaşıb (5 illik yaşam 78%); II mərhələdə şiş artıq çanaqdadır (5 illik yaşam 59%); III mərhələdə qarın boşluğuna yayılıb (5 illik yaşam 23%); IV mərhələdə isə uzaq metastazlar vardır (5 illik yaşam 14%) [2].

Yumurtalıq xərçənginin proqnozu müstəqil olaraq aşağıdakılardan asılıdır:

-diaqnoz qoyulan zaman xərçəngin mərhələsi;

-histoloji tip və differensasiya dərəcəsi;

-cərrahiyyədən sonra qalan şışın həcmı;

Erkən mərhələ yumurtalıq xərçəngi xəstələri aşağı riskli və yüksək riskli olmaqla, iki qrupa ayrılır. Ia və Ib mərhələsində və I dərəcə olan xəstələr residiv baxımından aşağı riskli kimi qiymətləndirilir. Bu xəstələr cərrahi əməliyyatdan sonra əlavə müalicəyə məruz qalmadan müşahidə edilirlər. Bu xəstələrdə cərrahi əməliyyat tam həyata keçirilmişsə, proqnoz çox yaxşıdır və əlavə müalicəyə ehtiyac olmur. İrəli mərhələ qəbul edilən xəstələrdə isə ən uyğun "şiş azaldan cərrahiyə" həyata keçirilməlidir. Şiş azaldan cərrahiyənin məqsədi mümkün olan bütün şişin çıxarılması, əgər şişin hamısı çıxarıla bilinmirsə, yerdə qalan şişin ölçülərinin 1-2 cm-dən kiçik olmasıdır. Bu xəstələrə cərrahi əməliyyatdan sonra adyuvant ximioterapiya verilməlidir [3].

Ginekoloji xərçənglərin arasında ximioterapiyaya ən yaxşı cavab verən, yumurtalıq xərçəngidir. Xəstələrin çoxunda ximioterapiyaya cavab alınması tam sağalma üçün bir potensial olduğunu göstərir. Amma dərmana rezistent klonların meydana çıxması ilə əlaqədar xəstələrin 75%-indən çoxu xəstəliklərindən ölürlər. Xəstələrin kiçik bir qrupunda ximioterapiyaya birincili rezistentlik görünür ki, bunlarda proqnoz daha pisdir [2].

Epitelial yumurtalıq xərçəngində standart kimyəvi dərman müalicəsi platin əsaslıdır. Platinsiz müalicələrə cavab 40% təşkil edərkən, platin əsaslı müalicələrdə cavab 60-80%-dir. Bundan başqa, digər müalicələrə cavab alına bilməyən xəstələrdə platin əsaslı müalicəyə 30-40% hallarda cavab alınır. Karboplatin və sisplatin arasında effektivlik baxımından fərq yoxdur [4]. Çox vaxt karboplatinə sisplatindən daha yaxşı tolerans göstərilir (daha az nefrotoksik, neyrotoksik, emetogenik) [5].

Əvvəllər kombinasiyalı müalicə olaraq, platinlə birlikdə siklofosfamid istifadə edilirdi. Platin/paklitaksel ilə patin/siklofosfamid müalicələri müqayisə ediləndə, paklitaksel qrupunda klinik cavabın 59% təşkil edərkən, siklofosfamid qrupunda 48% olduğu, tam klinik remissiyanın isə, paklitaksel qrupunda 41% olarkən, siklofosfamid qrupunda 27% olduğu görülmüşdür. Paklitaksel

istifadə edilən xəstələrdə ümumi sağqalmanın da nəzərəçarpan dərəcədə uzun olması səbəbi ilə ilk addım müalicə olaraq, artıq paklitaksel/platin müalicəsi tətbiq edilməkdədir [6,7,8].


Platin əsaslı ximioterapiya epitelial yumurtalıq xərçəngi olan xəstələrdə sağqalmanı uzadır. Yüksək (70-80%) nisbətdə birincili cavaba baxmayaraq, xəstələrin 75%-ində klinik residiv görünür. Residiv olan xəstələrə kimyəvi terapiya onların platin əsaslı müalicəyə həssas olub-olmadıqlarına nəzərən təyin olunur. Platin əsaslı birincili müalicəyə alınan cavab əsasında müəyyən edilən "platinə həssaslıq" ilə planlaşdırılan platin tərkibli ikincili müalicəyə cavab proqnozlaşdırıla bilər. Ümumiyyətlə, ximioterapiya əsnasında proqressivləşən, sabit qalan və ya ilk 6 ay ərzində təkrarlayan xəstələr "platinə rezistent" kimi qəbul edilirlər. 12 aydan uzun bir müddət ərzində residiv verməyən xəstələr isə "platinə həssas" kimi təsnif edilir. 6-12 ay arasında təkrarlayan xəstələr isə ara qrup olub, yarımhəssas sayılırlar. İkincili müalicəyə verilən cavab nisbətlərində həssas və diranclı qrup arasında böyük fərq görünür [9,10].

Ximioterapiyaya rezistentlik yumurtalıq xərçəngi xəstələrində ən böyük problemlərdən biridir. Müalicəyə cavab əvvəlcədən proqnozlaşdırıla bilərsə, bu, cavab faizinin yüksəldilməsinə və lazımsız ximioterapiyalardan uzaqlaşmağa imkan verə bilər. Hal-hazırda ximioterapiyaya cavabı proqnozlaşdıra biləcək bir bioloji marker mövcud deyil [11].

Son zamanlarda həm xəstəliyin patogenezində, həm də proqnozunda olduğu kimi, eyni zamanda, ximioterapiyaya cavabda rol oynadığı irəli sürülən siklooksigenaza (COX) fermenti maraq dairəsinə düşmüşdür. COX, araxidon turşusundan prostoqlandin sintez edən ferment olub (şəkil-1), bu yolla şiş əmələ gəlməsi və inkişafında kritik mərhələlərdə iştirak edir. Bu fermentin xərçəng patogenezindəki yeri COX inhibitoru olduğu bilinən qeyri-steroid iltihab əleyhinə dərmanları (QSİƏD) müntəzəm qəbul edənlərdə kolorektal, süd vəzi, prostat xərçənglərinə daha az rast gəlindiyi epidemioloji tədqiqatlarla aşkara çıxarıldıqdan sonra əhəmiyyət qazandı [12,13,14,15].

COX fermentinin iki izoforması olduğu göstərilmişdir: COX-1, demək olar ki, bütün toxumalarda ifraz olunub, homeostatik funksiyalarda iştirak edirkən, COX-2, iltihab əsnasında ifraz olunur [16]. Son vaxtlarda, in-vitro və preklinik tədqiqatlarda COX-2 fermentinin, kolorektal xərçəngdə apoptozun inhibisiyası, ekstrasellulyar matriksə adheziyanın artması, metastatik potensialın artması və neoangiogenez ilə əlaqədar olduğu aşkar edilmişdir [17,18,19,20].

COX-2 fermentinin kolorektal xərçənglərdən başqa, digər solid şişlərdə də həddində artıq ifraz olunduğu aşkar edilmiş, eyni zamanda, bu fermentin pis proqnoz və aqressivliyin klinik və patohistoloji parametrləri ilə əlaqəsi göstərilmişdir [21,22,23,24,25,26,27]. Ginekoloji xərçənglərdən uşaqlıq boynu xərçəngində COX-2 fermentinin çox ifraz olunmasının ximioterapiyaya rezistentlik və pis proqnozun xəbərvericisi olduğu aşkar edilmişdir [28].



Şək.1. Siklooksigenaza enziminin (COX) patofizioloji rolu

Yumurtalıq xərçəngi və COX-2 arasında əlaqəyə gəldikdə isə, bu istiqamətdə aparılan az saylı tədqiqatlarda COX-2 ifrazının yumurtalıq xərçəngi hüceyrə kulturalarında apoptoza mane olduğu göstərilmişdir (29). Munkarah və həmkarlarının in-vitro epitelial yumurtalıq xərçəngi hüceyrə kulturaları üzərində həyata keçirdikləri tədqiqatda xərçəng hüceyrə mühitinə prostoqlandin E2 əlavə edildikdə, prostoqlandin E2-nin proliferasiyanı artırdığı və apoptozu azaltdığı göstərilmişdir. Dozadan asılı olaraq, nəticədə xərçəng hüceyrələrindən COX2-nin daha çox ifraz olunduğu aşkara çıxarılmışdır. Müəlliflər prostoqlandin və COX2-nin proliferasiya və apoptoza təsir edərək xərçəng əmələ gəlməsində və inkişafında rol oynaya biləcəyi fikrini irəli sürmüşlər (30). Shahab Uddin və əməkdaşları öz işlərində mühitə qeyri-selektiv COX inhibitoru olan aspirin və selektiv COX2 inhibitoru olan NS398 kimi maddələr əlavə edilən xərçəng hüceyrə kulturalarında hüceyrə proliferasiyasının, əlavə edilməmiş kulturalara nisbətən azaldığını göstərmişlər. Həmin elmi işdə COX fermentinin aspirinlə inhibə edilməsinin, şiş hüceyrəsi proliferasiyasını in-vivo şəraitdə də azaltdığını göstərmək məqsədi ilə, şiş hüceyrələri inyeksiya edilmiş siçanlardan aspirin ilə müalicə edilənlərlə edilməyənlər müqayisə edilmiş, müalicə edilənlərdə şişin azaldığı və bu azalmanın aspirinin dozası ilə mütənasib olduğu müşahidə edilmişdir [31]. Urick və əməkdaşlarının heyvanlar üzərində aparılan başqa bir elmi işində aspirinin toyuqlarda yumurtlıq xərçəngi əmələ gəlməsi tezliyini azaltmasa da, mərhələsini azaltdığı görünmüşdür [32].

Siklooksigenaza fermentinin şiş əmələ gəlməsi və inkişafındakı rolu, proqnostik faktorlarla əlaqəsi araşdırılarkən, müxtəlif xərçəng növlərində şişin kimyəvi dərman müalicəsi və radioterapiyaya həssaslığına da təsiri araşdırılmışdır. Aparılan in-vitro tədqiqatlarda müxtəlif xərçəng hüceyrə kulturalarında, eyni zamanda heyvanlar üzərində tədqiqatlarda COX2 fermentinin çox ifraz olunmasının ximioterapiya və radioterapiyaya rezistentlik ilə əlaqəli olduğu göstərilmiş, COX2 inhibitorlarının bu rezistentliyi azaltdığı bildirilmişdir [33,34]. Ferrandina və əməkdaşları öz işlərində COX2 fermentinin çox ifraz olunmasının uşaqlıq boynu xərçəngində neoadyuvant sisplatin müalicəsinə rezistentliklə birlikdə olduğunu göstərmişlər [28].

Yuxarıda bildirilən tədqiqatların əksinə, Munkarah və əməkdaşlarının yumurtalıq xərçəngi hüceyrə kulturaları ilə həyata keçirdikləri işdə, in-vitro şəraitdə yumurtalıq xərçəngi hüceyrələrində, paklitakselin apoptozu artırdığı müəyyən edilmişdir. Ancaq paklitaksel ilə eyni zamanda və ya ardıcıl olaraq spesifik COX2 inhibitorunun və aspirinin mühitə əlavə edilməsi ilə apoptozun azaldığı göstərilmişdir. Müəlliflər bu halın digər tədqiqatlarla təzad təşkil etdiyini və in-vivo işlərdə də bu vəziyyət meydana çıxarsa, paklitaksel və QSİƏD birlikdə istifadəsinin, düşünüldyünün əksinə, müalicəyə mənfi təsir edə biləcəyini irəli sürüblər [35].

Ferrandina və əməkdaşlarının 2002-ci ildə əməliyyatdan sonra qalıq şiş toxuması olan yumurtalıq xərçəngi xəstələri üzərində apardıqları tədqiqatda, pasientləri sitoreduksiya edilə bilənlər və edilə bilməyənlər deyə iki qrupa ayıraraq dəyərləndirəndə, hər iki qrupda da platinə rezistent xəstələrdə COX2 fermentinin ifrazının yüksək olduğu aşkar edilmişdir. Bundan başqa, ximioterpaiyaya rezistentliyi müəyyənləşdirən müxtəlif faktorların təsiri araşdırılmışdır. Şişin histoloji tipi, differensiasiya dərəcəsi, həyata keçirilən cərrahi əməliyyatın optimallığı və assit olub olmaması ilə ximioterpaiyaya rezistentlik arasında əlaqə tapılmazkən, irəli yaş və COX-2 ifrazının ximioterapiyaya rezistentliyə təsir etdiyi müəyyən edilmişdir [36].

Ferrandina və əməkdaşlarının 2006-cı ildə apardıqları başqa bir tədqiqatda COX-2 müsbət olan xəstələrdə ximioterapiyaya rezistentliyin daha çox olduğu aşkara çıxarılmışdır. Ancaq xəstələrin ximioterapiyaya həssas və ya rezistent olmalarına təsir edən müxtəlif faktorlar analiz edildikdə COX-2 ifrazının təsirinin olmadığı müəyyənləşdirilmişdir [37].

Göründüyü kimi, ximioterapiyaya həssas və rezistent xəstə qruplarında, sadəcə, COX2-müsbət və COX2-mənfi xəstə faizlərinin müqayisəsində bu faizlər arasındakı fərq, Ferrandinanın hər iki tədqiqatında statistik olaraq etibarlı çıxarkən, ximioterapiyaya təsir edə biləcək digər faktorları da nəzərə alan logistik reqressiya analizi nəticəsində, yalnız birinci tədqiqatda COX-2 müsbətliyinin ximioterapiyaya rezistentliklə əlaqəsi etibarlı çıxmış, ikinci tədqiqatda isə bu əlaqə müəyyən edilməmişdir.

Ferrandina və əməkdaşlarının, təkcə 2002 ilində apardıqları tədqiqatda COX-2 fermentinin çox ifrazının sağqalmaya təsiri araşdırılmışdır. Birincili sitoreduksiya edilən 52 xəstəlik qrupda COX-2 müsbət və mənfi xəstələrin ümümi sağqalmasında fərq yox ikən, sadəcə, diaqnostik laparotomiya edilə bilən 35 nəfərlik qrupda COX-2 müsbət xəstələrin daha pis sağqalma göstərdikləri aşkar edilmişdir.

Ali-Fehmi və əməkdaşlarının 125 gecikmiş mərhələdə (III- IV) yumurtalıq xərçəngi xəstəsi üzərində apardıqları tədqiqatda da COX-2 fermenti çox ifraz olunan xəstələrin az yaşadıqları və çox dəyişənli analizdə COX-2 ifrazının sağqalmanı müəyyən edən ən vacib proqnostik faktor olduğu göstərilmişdir. Bundan başqa, bu tədqiqatda COX-2 ilə neoangiogenez arasında da əlaqə olduğu aşkar edilmişdir [38].

Yuxarıda araşdırılan tədqiqatların material və metodları eyni deyildir. Seçilən xəstələr, xüsusilə, mərhələ və qalıq şiş baxımından fərqli olub, COX-2 müsbətlik kriteriyaları da fərqli alınmışdır. Başqa sözlə desək, tədqiqatların nəticələri bir-biri ilə müqayisə edilirkən, bu fərqləri də nəzərə almaq lazımdır. Amma bütün bu tədqiqatlara əsasən COX-2 fermentinin çox ifrazının sağqalmaya və ximioterapiyaya cavaba mənfi təsir etdiyini demək olar. Həm də, bu mənfi təsiri daha geniş xəstə qruplarında tədqiq edilməsinə ehtiyac vardır.

ƏDƏBİYYAT

1. Parker S.L., Tong T., Bolden S., Wingo P.A. Cancer statistics // CA Cancer J Clin., 1997,v. 47, p.5-27
2. Berek J.S., Hacker N.F. Epithelial Ovarian Cancer / Practical Gynecologic Oncology, 3. edition. Philadelphia: Lippincott Williams & Wilkins, 2000, p. 504-506.
3. Ayhan A., Başaran A. Over Kanseri. / Jinekoloji Üreme Endokrinolojisi & İnfertilite. Jinekolojik Onkoloji. Sinan Beksaç M. (ed) Medical Network, 2006; 1433-1469.
4. Harries M., Gore M. Part I: chemotherapy for epithelial ovarian cancer-treatment of recurrent disease // Lancet Oncol., 2002, v.3, p.529-536.
5. Hurwitz H.I., McGuire W.P. 3rd. Primary chemotherapy in epithelial ovarian cancer // Obstet Gynecol Clin North Am., 1994, v.21, p.141-154.
6. Thigpen J.T. Chemotherapy for advanced ovarian cancer: overview of randomized trials // Semin Oncol., 2000, v.27, p.11-16.
7. Sandercock J., Parmar M.K., Totti V. First-line chemotherapy for advanced ovarian cancer: paclitaxel, cisplatin and the evidence // Br J Cancer, 1998, v.78, p.1471-1478.
8. Mc Guire W.P., Hoskins W.J., Brady M.F. Cyclophosphamide and cisplatin versus paclitaxel and cisplatin: a phase III randomized trial in patients with suboptimal stage III/IV ovarian cancer (from yhe Gynecologic Oncology Group) // Semin Oncol., 1996, v.23, p.40-47.
9. Disaia P.J., Creasman W.T.,Epithelial Ovarian Cancer / Clinical Gynecologic Oncology. Sixth edition. Mosby Inc., p. 259-351.
10. Blackledge G., Lawton F., Redman C. et al. Response of patients in phase II studies of chemotherapy in ovarian cancer: Implications for patient treatment and design of phase II trials // Br J Cancer. 1989, v.59, p.650-653.
11. Steffensen K.D. Waldstrøm M., Jeppeseny U. et al. Prediction of response to chemotherapy by ERCC1 immunohistochemistry and ERCC1 polymorphism in ovarian cancer // Int J Gynecol Cancer., 2008, v.18, p.702–710.
12. DuBois R.N., Giardiello F.M., Smalley W.E. Non steroidal anti-inflammatory drugs, eicosanoids and colorectal cancer // Gastroenterol Clin North Am., 1996, v.25, p.773–791.
13. Harris R.E., Namboodiri K.K., Farrar W.B. Non steroidal anti-inflammatory drugs and breast cancer // Epidemiology. 1996, v.7, p.203–205.
14. Norrish A.E., Jackson R.T., McRae C.U. Non steroidal anti-inflammatory drugs and prostate cancer progression // Int J Cancer, 1998, v.77, p.511–515.
15. Funkhouser E.M., Sharp G.B. Aspirin and reduced risk of esophageal carcinoma // Cancer, 1995, v.76, p.1116–1119.
16. Williams C.S., DuBois R.N. Prostaglandins endoperoxide synthase: why two isoforms? // Am J Physiol., 1996, v. 270, p.393–400.
17. Tsujii M., DuBois R.N. Alterations in cellular adhesion and apoptosis in epithelial cells overexpressing prostaglandin endoperoxide synthase 2 // Cell, 1995, v.83, p.493–501.
18. Tsujii M., Kawano S., DuBois R.N. Cyclooxygenase-2 expression in human colon cancer cells increases metastatic potential // Proc Natl Acad Sci USA, 1997, v .94, p. 3336–3340.
19. Tsujii M., Kawano S., Tsuji S. Cyclooxygenase-2 regulates angiogenesis induced by colon cancer cells. // Cell, 1998, v.94, p.271.
20. Liu X.H., Kirschenbaum A., Yao S. et al. Inhibition of cyclooxygenase-2 suppresses angiogenesis and the growth of prostate cancer in vivo // J Urol., 2000, v.164, p.820–825.
21. Tomozawa S., Tsuno N.H., Sunamio E. et al. Cyclooxygenase-2 overexpression correlates with tumor recurrence, especially haematogenous metastasis of colorectal cancer // Br J Cancer, 2000, v.83, p.324–328.
22. Madaan S., Abel P.D., Chaudhari K.S. Cytoplasmic induction and overexpression of cyclooxygenase-2 in human prostate cancer: implications for prevention and treatment // Br J Urol., 2000, v.86, p.736–741.

23. Tucker O.N., Dannemberg A.J., Yang E.K. Cyclooxygenase-2 expression is upregulated in human pancreatic cancer // Cancer Res., 1999, v.59, p.987–990.
24. Hwang D., Skollard D., Byerne J., Levine E. Expression of cyclooxygenase 1 and cylooxygenase-2 in human breast cancer // J Natl Cancer Inst., 1998, v. 90, p.455–460.
25. Ohno R., Yoshinaga K., Fujita T. et al. Depth of invasion parallels increased cyclooxygenase 2 levels in patients with gastric carcinoma // Cancer, 2001, v.91, p.1876–1881.
26. Sheehan K.M., Sheahan K., O'Donoghue D.P. et al. The relationship between cyclooxygenase-2 expression and colorectal cancer // J Am Med Assoc., 1999, v.282, p.1254–1257.
27. Kulkarni S., Rader J.S., Zhang F. et al. Cyclooxygenase-2 is overexpressed in human cervical cancer // Clin Cancer Res., 2001, v.7, p..429–434.
28. Ferrandina G, Lauriola L., Distefano M.G. et al. Increased cylooxygenase-2 (COX-2) expression is associated with chemotherapy resistance and poor survival in cervical cancer patients // J Clin Oncol., 2002, v.15, p. 973–981.
29. Munkarah A., Morris R.T., Baumann P. et al. Prostaglandins induced cyclooxygenase-2 expression and reduced apoptosis in epithelial ovarian cancer cells. Proc Soc Gynecol Oncol., 2001, p.176.
30. Munkarah A.R., Morris R., Baumann P., Deppe G. et al. Effects of prostaglandin E2 on proliferation and apoptosis of epithelial ovarian cancer cells // J Soc Gynecol Investig. 2002, v.9, p.168-173.
31. Shahab Uddin, Maqbool Ahmed, Azhar Hussain, et al. Cyclooxygenase-2 inhibition inhibits PI3K/AKT kinase activity in epithelial ovarian cancer. Int. J. Cancer. 2009.
32. Urick M.E., Giles J.R., Johnson P.A. Dietary aspirin decreases the stage of ovarian cancer in the hen // Gynecologic Oncology, 2008, v.112, p.166-170.
33. Hida T., Kozaki K., Muramatsu H. et al. Cyclooxygenase-2 inhibitor induces apoptosis and enhances cytotoxicity of various anticancer agents in non small cell lung cancer cell lines // Clin Cancer Res., 2000, v.6, p.2006-2011.
34. Kishi K., Petersen S., Petersen C. et al. Preferential enhancement of tumor radioresponse by cyclooxygenase-2 inhibitors // Cancer Res., 2000, v.60, p.1326-1331.
35. Munkarah A., Genhai Z., Morris R., Baker V.V. et al. Inhibition of paclitaxel-induced apoptosis by the specific COX-2 inhibitor, NS398, in epithelial ovarian cancer cells // Gynecologic Oncology, 2003, v.88, p.429–433.
36. Ferrandina G., Lauriola L., Zannoni G.F. et al. Increased cyclooxygenase-2 (COX-2) expression is associated with chemotherapy resistance and outcome in ovarian cancer patients // Annals of Oncology, 2002, v.13, p.1205-1211.
37. Ferrandina G., Ranelletti F.O., Martinelli E. et al. Cyclo-oxygenase-2 (Cox-2) expression and resistance to platinum versus platinum/paclitaxel containing chemotherapy in advanced ovarian cancer. BMC // Cancer, 2006, v.6 p.182-189.
38. Ali-Fehmi R., Mingxin Che, Khalifeh I. et al. The Effect of Cyclooxygenase-2 Expression on Tumor Vascularity in Advanced Stage Ovarian Serous Carcinoma // Cancer, 2003, v.98, p.1423-1429

РЕЗЮМЕ

ХИМИЧЕСКО- ЛЕКАРСТВЕННОЕ ЛЕЧЕНИЕ РАКА ЯИЧНИКОВ. РОЛЬ ЦИКЛООКСИГЕНАЗА-2 В РЕЗИСТЕНЦИИ К ЛЕЧЕНИИ

Р.Р.Султан

Эпителиальный рак яичников является ведущей причиной онкологической смертности от злокачественных гинекологических заболеваний. У большинства пациентов на поздней стадии заболевания, как правило, после хирургического вмешательства проводится послеоперационная химиотерапия. Платиновые аналоги, включая карбоплатин является основой лечения. Тем не менее, основным ограничением для успешного лечения эпителиального рака яичников являются частые рецидивы Циклооксигеназы-2 (ЦОГ-2) выраженино связано с агрессией клинико- патологическими параметров и неблагоприятным прогнозом. Оценка ЦОГ-2 статуса может предоставить дополнительную информацию с целью выявления больных раком яичников с плохим шансом ответ на химиотерапию.

SUMMARY

CHEMICAL DRUG TREATMENT IN OVARY CANCER. ROLE SIKLOOKSIGENAZA- 2 FERMENT IN TREATMENT IN RESISTANT OF TREATMENT

R.R.Sultan

Epithelial ovarian cancer is the leading cause of cancer mortality from gynecologic malignancies. The majority of patients present with advanced disease that is typically managed with surgical cytoreduction followed by postoperative chemotherapy. Platinum analogs including carboplatin are the mainstay of treatment yielding response rates of approximately 70% in newly diagnosed patients with advanced disease. However, the major limitation to the successful treatment of epithelial ovarian cancer is the frequent development of disease recurrence. Cyclooxygenase-2 (COX-2) expression is associated with aggressive clinicopathological parameters

and unfavourable prognosis. The assesment of COX-2 status could provide additional infromation in order to identify ovarian cancer patients with poor chance of response to chemotherapy.

Daxil olub:02.08.2011

ПАТОГЕНЕТИЧЕСКОЕ ЗНАЧЕНИЕ ПЕРЕКИСНОГО ОКИСЛЕНИЯ ЛИПИДОВ И АНТИОКСИДАНТНАЯ СИСТЕМА ПРИ НАРУШЕНИЯХ ВНУТРИКЛЕТОЧНОГО ГОМЕОСТАЗА

Р.Р.Гоюшова
Кафедра Физиологии человека и животных Бакинского Государственного Университета

Большое количество исследований на протяжении последних лет посвящены перекисному окислению субстратов при разных патологических состояниях. Окончательно не установлена роль перекисного окисления липидов (ПОЛ) и связанных с ним дисфункции эндотелия в развитии кардиоваскулярных осложнений при хронических заболеваниях почек (ХЗП). Авторы [1] указывают, что ПОЛ у больных сахарным диабетом типа I и ХЗП вызывает дестабилизацию липидного матрикса цитоплазматических мембран и мембран субклеточных органелл, в частности митохондрий и лизосом. Происходит понижение содержания в клетках, а именно в нейтрофилоцитах неферментных катионных белков, снижение среднего цитохимического коэффициента. С биохимической точки зрения перекисное окисление липидов - цепные реакции, которые обеспечивают расширенное воспроизводство свободных радикалов, частиц, имеющих неспаренный электрон и инициируют дальнейшее распространение перекисного окисления. Это физиологический процесс, который принимает участие в регуляции клеточных функций. Группа шведских и американских ученых предложила гипотезу, согласно которой главной причиной ускоренного развития атеросклероза, сердечно-сосудистых заболеваний и смертности при ХПН являются окислительный стресс и его последствия [2,3,4].

Развитие состояния окислительного стресса и усиление свободно-радикальных процессов являются одним из патогенетических звеньев воспалительных процессов любого генеза, гипоксических состояний, химических и радиационных поражений, а так же онкологических заболеваний. Литературные данные свидетельствуют о нарушении равновесия в системе прооксидантной - антиоксидантной защиты и среди факторов развития рака. При повышении уровня свободно-радикального окисления возможно быстрое разрушение клеточных структур в результате их повреждения. Показано, что практически все патологические состояния помимо специфического ответа сопровождаются повышенным уровнем ПОЛ [5]. Реакции ПОЛ являются свободно-радикальными и постоянно происходят в организме. Свободно-радикальное окисление нарушает структуру многих молекул. В белках окисляются некоторые аминокислоты, в результате чего, разрушается структура белков, между ними образуются ковалентные "сшивки", которые активируют протеолитические ферменты в клетке, гидролизующие повреждённые белки. Повреждающим фактором при этом является избыточный уровень активных форм кислорода (АФК), заменяющие свою регуляторную, физиологическую роль на патогенетическую [5,6]. В последние годы широко обсуждается роль АФК и инициируемых ими свободно-радикальных процессов при различных патологических процессах. В нормальных условиях активность этих процессов находится на невысоком уровне и при стрессовых ситуациях происходит усиленное образование АФК, под действием которых происходит избыточная и неконтролируемая активация процессов ПОЛ, что в конечном итоге может привести к патологическому состоянию, которое сопровождается дисбалансом ферментативных и неферментативных компонентов системы антиоксидантной защиты. Характерным проявлением окислительного стресса является интенсификация процессов ПОЛ, индикатором которой служит увеличение содержания хотя бы одного из его продуктов. Данные о содержании продуктов ПОЛ в биологических объектах могут нести в себе информацию о глубине и степени патологического процесса. В качестве количественных маркеров наиболее часто используются такие интермедиаты ПОЛ, как диеновые конъюгаты (ДК), а также один из его промежуточных продуктов - малоновый диальдегид (МДА). Все активные формы кислорода обладают высокой цитотоксичностью в отношении любых типов клеток и клеточных образований, что определяется их химической активностью. Активные формы

кислорода легко повреждают и структуру ДНК, белков и различные мембранные структуры клеток. В результате появления в гидрофобном слое мембран гидрофильных зон за счёт образования гидропероксидов жирных кислот в клетки могут проникать вода, ионы натрия, кальция, что приводит к набуханию клеток, органелл и, в конечном счете, способствует их разрушению. Активация перекисного окисления характерна и для многих заболеваний: дистрофии мышц (болезнь Дюшенна), болезни Паркинсона, при которых ПОЛ разрушает нервные клетки в стволовой части мозга, при атеросклерозе, развитии опухолей. Перекисное окисление активируется также в тканях, подвергшихся сначала ишемии, а затем реоксигенации, что происходит, например, при спазме коронарных артерий и последующем их расширении. Неспецифическое связывание Fe^{2+} молекулой ДНК облегчает образование гидроксильных радикалов, которые разрушают структуру азотистых оснований. Но наиболее подвержены действию активных форм кислорода жирные кислоты, содержащие двойные связи, расположенные через CH_2-группу. Именно от этой CH_2-группы свободный радикал (инициатор окисления) легко отнимает электрон, превращая липид, содержащий эту кислоту, в свободный радикал [4,6].

Можно выделить 4 наиболее вероятные мишени окислительной цитотоксической атаки АФК: индукция процессов ПОЛ в биологических мембранах, повреждение мембраносвязанных белков, инактивация ферментов и повреждение ДНК клеток. Одним из важнейших следствий избыточного образования АФК является чрезмерная в этих условиях активация процессов ПОЛ [6]. В нормальных условиях активность этих процессов находится на невысоком уровне, обеспечивающее протекание ряда физиологических процессов. Патологически усиленная активация процессов ПОЛ под действием АФК приводит к необратимому изменению или повреждению мембранных структур, нарушению их проницаемости для ионов. В исследованиях последних лет высказывается, что такая же ситуация возникает при образовании тромба в сосуде, питающем миокард. Формирование тромба приводит к окклюзии просвета сосуда и развитию ишемии в соответствующем участке миокарда (гипоксия ткани). Если принять экстренные лечебные меры по разрушению тромба, то в ткани восстанавливается снабжение кислородом (реоксигенация). Показано, что в момент реоксигенации резко возрастает образование АФК, которое может повредить клетку. Таким образом, несмотря на быстрое восстановление кровообращения, в соответствующем участке миокарда происходит повреждение клеток за счёт активации перекисного окисления. Изменение структуры тканей в результате ПОЛ можно наблюдать и на коже: с возрастом увеличивается количество пигментных пятен на коже, особенно на дорсальной поверхности ладоней [3,5]. В клинической химии нет методов, позволяющих оценивать окисление белков. Существенно проще проследить окисление активными формами кислорода, например, пероксидом водорода, не самих протеинов, а тех субстратов, которые переносят транспортные белки. Таким субстратом являются жирные кислоты, которые в крови в составе различных липидов переносят к клеткам специфичные транспортные белки полипротеины, формируя липопротеины - липидпереносящие макромолекулы белка. ПОЛ происходит в крови на границе фаз "водная среда - липид" в составе липопротеинов, которые используются как субстрат окисления. Процессы ПОЛ можно условно подразделить на 3 фазы развития: процесс зарождения цепей, процессы развития цепных реакций и обрыв цепей [7,8]. В биологических мембранах окислению подвергаются преимущественно полиненасыщенные жирные кислоты, входящие в состав фосфолипидов [9]. На стадии инициирования под действием свободных радикалов O_2, ионизирующей радиации, ультрафиолетового облучения и ряда химических веществ, относящихся к прооксидантам, происходит отрыв атома водорода в альфа-положении по отношению к двойной связи. Присутствие двойной связи в жирной кислоте ослабляет связь С-Н в смежных углеродных атомах и тем самым облегчает отщепление Н·. Чем длиннее ненасыщенная боковая цепь кислоты жирного ряда, тем сильнее у неё склонность подвергнуться липидному окислению [10]. Радикал с углеродом в центре претерпевает молекулярную перегруппировку с образование диена, содержащего сопряженные двойные связи, который в дальнейшем соединяется с O_2 и образует радикал пероксида, способный отделить атом водорода от другой жирной кислоты. Возникновение в результате этой реакции органических перекисей и нового радикала способствует продолжению окислительных реакций, приобретающих цепной характер [7,8].

Одним из универсальных механизмов защиты клетки от избыточного ПОЛ является многоуровневая система антиоксидантов. На сегодня показано, что процесс физиологического старения организма носит многофакторный необратимый характер. Современная свободно-радикальная теория старения предполагает, что наступающая с возрастом дезадаптация связана с повреждениями важных биомолекул продуктами ПОЛ. В ходе многочисленных экспериментов выяснено, что митохондрии - наиболее уязвимое и основное "стартовое" звено в старении клетки. Внутриклеточная гипероксия, как результат первичного процесса старения митохондрий, становится фактором поражения не только всех субклеточных структур, но внеклеточных образований. Полагают также, что модификация структуры плазматической мембраны - один из наиболее вероятных механизмов нарушения регуляции тканевого метаболизма при старении [11].

В ходе ПОЛ субстрат (полиненасыщенные жирные кислоты) продолжают расходоваться, если только в этот процесс не вмешивается глутатионпероксидаза, восстановленный глутатион, витамин Е или другой антиоксидант, что ведет к прерыванию цепной реакции [12]. Благодаря наличию в организме антирадикальной защиты, процессы пероксидации ограничиваются [7]. Физиологическая роль перекисного окисления заключается в участии в процессах самообновления, самоперестройки биологических мембран, ионного транспорта, регуляции активности мембраносвязанных ферментов и других физиологических реакций [13].

Повышение уровня ПОЛ наблюдается при многих заболеваниях, различных патологических состояниях и интоксикациях. При этом считают, что в случае болезни и интоксикации происходит возрастание ПОЛ, продукты которого и являются ответственными за повреждение клеток и тканей. Однако, как было установлено [14] поврежденные ткани подвержены перекисному окислению липидов в гораздо большей степени, чем здоровые. Причина этого явления – инактивация некоторых биоантиоксидантов, утечка антиоксидантов из поврежденных клеток и выделение ионов металлов (особенно железа и меди) из мест их накопления в клетках и из металлопротеинов, гидролизованных освободившимися из разрушенных липосом ферментами [15].

Состав продуктов перекисного окисления липидов достаточно сложен. К продуктам цепной реакции ПОЛ относятся разновидности гидроперекисей, которые способны подвергаться нерадикальным окислительным превращениям, что приводит к образованию первичных (диеновые коьюгаты), и конечных продуктов ПОЛ (малоновый диальдегид, основания шиффа) [16].

Избыточное образование продуктов пероксидации приводит к целому комплексу цитотоксических эффектов, включающих инактивацию ряда ферментных систем, угнетение синтеза белка, повреждение и угнетение синтеза ДНК, лизис клеточных структур, нарушение репродуктивных процессов деления клеток. И несмотря на многочисленные исследования, посвященные изучению данных процессов, механизмы перекисного окисления липидов, происходящие на клеточном уровне до конца не изучены.

Таким образом, ПОЛ является компонентом биологической реакции воспаления. Активация перекисного окисления липидов при некоторых патологиях есть проявление эндогенного воспаления - его инициирует накопление в крови эндогенных патогенов, таких как липопротеины низкой плотности, которые клетки не могут поглощать путем специфичного эндоцитоза. Процесс липопероксидации является неспецифическим патогенетическим фактором клеточного повреждения, поэтому лабораторные данные о содержании продуктов ПОЛ в биологических объектах могут нести информацию о глубине и степени выраженности патологического процесса. Важная роль процессов ПОЛ в развитии патологии является обоснованием для использования параметров, характеризующих интенсивность перекисного окисления липидов и состояние системы антиоксидантной защиты, в диагностических и прогностических целях в различных областях медицинских знаний [17].

ЛИТЕРАТУРА

1. Дзугкоева Ф.С., Такоева Е.А., Можаева И.В. Состояние активности про- и антиоксидантной системы как факторов риска эндотелиальной дисфункции почечной недостаточности у больных с хроническими болезнями почек // Успехи современного естествознания. 2011, № 12, с.38-39

2. Топчий И.И. Особенности диагностики и лечения ИБС у больных с хроническими заболеваниями почек // Нефрология и диализ. 2002, том 10, с.142-231.

3. Boger R.H., Zoccali C. ADMA: a novel risk factor that explains excess cardiovascular event rate in patients with end-stage renal disease // Atheroscler. Suppl. 2003, v.4, № 4, p.23-28.
4. Morena M., Delbosc S., Dupuy A.M. et al. Overproduction of reactive oxygen species in end-stage renal disease patients: a potential component of hemodialysis-associated inflammation // Hemodial. Int. 2005. vol. 9, № 1, p.37-46.
5. Дубинина Е.Е. Роль активных форм кислорода в качестве сигнальных молекул в метаболизме тканей при состоянии окислительного стресса // Ж. Вопр. мед. химии, 2001. т.47, №6, с.561-581.
6. Барабой В.А. , Голожин В.Г. Перекисное окисление и стресс. М.: Наука, 2004, 148 с.
7. Зенков Н.К., Ланкин В.З., Меньщикова Е.Б. Окислительный стресс. М.: Наука, 2004, 343с.
8. Меньщикова Е.Б., Ланкин В.З., Зенков Н.К. Окислительный стресс. Прооксиданты и антиоксиданты. М.: "Слово", 2006, 553 с.
9. Dix T.A., Aikens J. Mechanisms and biological significance of lipid peroxidation initiation. //J.Chem. Res. Toxicol., 2005, v. 6, p.2-18.
10. Хавинсон В.Х. с соавт. Свободнорадикальное окисление и старение.СПб.:Наука,2003,с.10-122
11. Арсланова Д.Р. Система "перекисное окисление липидов-антиоксиданты" у крыс на разных стадиях онтогенеза и канцерогенеза: Автореф. Дис. … канд. биол. наук. Ульяновск, 2009, 96 с.
12. Birringer M., EyTina J.H., Salvatore B.A. Vitamin E analogues as inducers of apoptosis: structure-function relation.// Br. J. Cancer. 2003, v.88, p.1948-1955.
13. Galeotti T., Masotti L., Borello S. Galeotti T. Oxy-radical metabolism and control of tumour growth. // Xenobiotika. 2003, v.21. p.1041-1052.
14. Halliwell B., Gutteridge J.M. Oxygen toxiciti, oxygen radicals, transition metals and disease. // Biochem. 2004, v.215, p.1-14.
15. Воскресенский О.Н., Левицкий А.П. Перекиси липидов в живом организме // Вопр. мед. Химии. 2003, т.16, № 6, с. 56
16. Журавлева Т.Д., Суплотов С.Н., Киянюк Н.С. Возрастные особенности свободнорадикального окисления липидов и антиоксидантной защиты в эритроцитах здоровых людей. //Вопр. мед химии. 2003, № 5, с. 17-18.
17. Ленинджер А. Основы биохимии: в 3-х томах. Т.2 – М.: Мир, 1985, 367 с.

XÜLASƏ

HÜCEYRƏDAXILI HOMEOSTAZ POZUNTULARI ZAMANI LIPILƏRIN PEROKSIDLƏŞMƏSI VƏ ANTIOKSIDANT SISTEMIN PATOGENETIK MAHIYYƏTI

R.R.Göyüşova

Son illər aparılan çoxsaylı tədqiqatlar müxtəlif patoloji vəziyytələrdə substartların peroksidləşməsinı həsr olunmuşdur. Son olaraq böyrəklərin xronik xəstəlikləri zamanı kardiovaskulayr ağırlaşmaların baş verməsində lipilərin peroksidləşməsi və bununla əlaqədar endoteldə baş verən disfunksiyalar müəyyən olunmamışdır. Beləliklə, LP iltihabın bioloji reaksiya komponentidir. Bir sıra patologiyalar zamanı lipilərin peroksidləşməsinin aktivləşməsi endogen iltihabın təzahürüdür, buna səbəb qanda toplanan aşağı sıxlıqlı lipoproteinlər kimi endogen patogenlərdir. Bunları hüceyrələr spesifik endositoz vasitəsilə uda bilmir.

SUMMARY

PATHOGENETIC SIGNIFICANCE OF LIPID PEROXIDATION AND ANTIOXIDANT SYSTEM IN DISTURBANCES OF INTRACELLULAR HOMEOSTASIS

R.R.Goyushova

A large number of studies in recent years devoted to the peroxidation of substrates under different pathological conditions. Conclusively established the role of lipid peroxidation (LPO) and the associated endothelial dysfunction in the development of cardiovascular complications in chronic kidney disease (CKD). Thus, the lipid is a component of the biological response of inflammation. Activation of lipid peroxidation under certain pathological conditions is an expression of the endogenous inflammatory - it triggers the accumulation of endogenous levels of pathogens, such as low-density lipoproteins, which cells can not absorb through specific endocytosis.

Daxil olub: 25.08.2011

MÜXTƏLİF MİNERAL TƏRKİBLİ SU PROSEDURLARININ TƏSİRİNDƏN SONRA SİÇOVULUN SİDİK KİSƏSİ VƏZİLƏRİNİN VƏ LİMFOİD TÖRƏMƏLƏRİNİN MƏRUZ QALDIĞI MORFOLOJİ DƏYİŞİKLİKLƏR HAQQINDA

G.A. Hüseynova
Azərbaycan Tibb Universiteti, Bakı

Borulu orqanların divarlarındakı vəzi və limfoid törəmələrinin morfoloji xüsusiyyətlərinə dair müxtəlif tədqiqat işləri aparılmış [9,20,21,28,31], irihəcmli əsərlər, monoqrafiyalar yazılmışdır [22]. Bu ilk növbədə qeyd edilən törəmələrin borulu orqanların istər normal, istərsə də müxtəlif mənşəli patoloji proseslərindəki bilavasitə iştirakı ilə əlaqədardır [29,30,32,33]. Digər tərəfdən, kiçik vəzilər və limfoid törəmələr yüksək struktur-funksional ləbillik və dinamik dəyişkənlik xüsusiyyətlərinə malik olmaqla orqanizmə müxtəlif faktorların, eyni zamanda patogen antropogenlərin təsiri zamanı, biomarker xüsusyyəti əldə edir və müxtəlif xəstəliklərin patogenezində "anatomik baza" rolunu yerinə yetirir [21]. Son illərdə bu sahədə əldə edilən çoxsaylı nailiyyətlərə baxmayaraq, boşluqlu orqanlardan olan sidik kisəsinin divarlarında yerləşən kiçik vəzilərin və limfoid törəmələrinin morfogenezi disproporsional öyrənilmişdir. Postnatal ontogenezdə sidik kisəsi vəziləri və limfoid törəmələrinin makro-mikroskopik anatomiyası, mikrotopoqrafiyası, mikrosintopiyası və s. digər xüsusiyyətləri ilə bağlı suallar tərəfimizdən tədqiq və təhlil edilmişdir [1].

Nəzərə almaq lazımdır ki, müxtəlif xarici mühit faktorlarının təsirindən sonra sidik kisəsinin vəziləri və limfoid törəmələrinin struktur dəyişikliklərinə dair materiallar böyük elmi əhəmiyyət kəsb edir. Müxtəlif illərdə ekoloji və antropogen faktorların təsiri zamanı vəzilərin morfoloji xüsusiyyətlərində baş verən dəyişikliklər barəsində silsilə xarakterli tədqiqat işləri aparılmışdır [14, 24]. Lakin, bu aspektdə, yəni balneoloji su prosedurlarının təsiri altında daxili orqanların vəzi və limfoid aparatlarının tədqiqinə, ələlxüsus bu strukturların biomarker xüsusiyyətlərinə, dinamik dəyişkənliyinə dair aparılmış işlər azlıq təşkil edir [12,16,23]. Bununla yanaşı, sidik kisəsinin vəzi və limfoid aparatlarının struktur-funksional dəyişikliklərinə səbəb olan, habelə əhalinin sağlamlıq vəziyyətinin yaxşılaşdırılması, orqanizmin rezistentlik qabiliyyətinin artırılması, xəstələrin reabilitasiyası və xəstəliklərin qeyri-medikamentoz yolla profilaktikası baxımından geniş tətbiq edilən elmi ədəbiyyat məlumatı yox dərəcəsindədir. Bu baxımdan Azərbaycan Respublikası ərazisində tapılan təbii mineral su mənbələrindən götürülən zəif bitumlu ("Qalaaltı" su mənbəyi), yodlu-bromlu termal ("Carlı" su mənbəyi) və qatı sulfidli ("Şixov" su mənbəyi) su prosedurlarının tətbiqi zamanı sidik kisəsinin vəzilərinin və limfoid törəmələrinin struktur-funksional dəyişikliklərinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Göstərilən təbii mineral sularının istifadəsi zamanı nəzərə çarpan klinik effektliliyin əldə edilməsinə baxmayaraq [4,15,18], onların qəbulunun həyat fəaliyyətinin bir sıra proseslərinə, uyğunlaşma (adaptasiya) potensialının yaxşılaşmasına müsbət təsir mexanizmi haqqında müasir elmi mövqelər hələ də işlənib hazırlanmamışdır [19].

Tərəfimizdən sidik kisəsinin vəzilərinin və limfoid törəmələrinin kurortoloji praktikada geniş tətbiq edilən su prosedurları təsirinə qarşı yüksək struktur ləbilliyinə, dinamik morfoloji dəyişkənliyə malik olması aydınlaşdırılmışdır. Siçovulun sidik kisəsi divarının vəzi və limfoid törəmələrinin su prosedurları təsirinə qarşı olan yüksək həssaslığı, onların müxtəlif ekzogen faktorların təhlükəsizlik və effektivliyini müəyyənləşdirmək üçün bioindikator (biomarker) kimi istifadəsinə şərait yaradır.

Sidik kisəsi vəzilərinin və limfoid törəmələrinin müxtəlif su prosedurları təsiri altında məruz qaldıqları struktur-funksional dəyişikliklər, kurortoloji praktikada müvafiq xəstəliklərin müalicəsinin efektivliyinin təminatını artırmaqla yanaşı, bu sahəyə aid müxtəlif sualları cavablandıra biləcək metodiki tövsiyələrin tərtibinə şərait yaradır.

Eksperimentdə siçovulun sidik kisəsi vəzilərinin və limfoid törəmələrinin (bu strukturların bioindikator effektivliyini əsas götürərək) dəyişkənlik xüsusiyyətini araşdırmaq məqsədi ilə müxtəlif su prosedurlarından istifadə zamanı sidik kisəsi vəziləri və limfoid törəmələrinin qeyri-sabit srtuktur xüsusiyyətinə malik olması aşkarlanmışdır; bu törəmələrin əldə etdikləri morfoloji dəyişikliklər onların məruz qaldıqları faktorun təsirindən və tətbiq edilən su prosedurunun kimyəvi tərkibindən asılıdır. Sidik kisəsi vəzilərinin və limfoid törəmələrinin kəmiyyət-ölçü göstəriciləri yodlu-bromlu və bitumlu mineral su prosedurlarının təsirindən sonra artım xüsusiyyətləri əldə edir. Belə ki, nəzarət qrupu siçovulları ilə müqayisədə sidik kisəsi vəzilərinin alveol (başlanğıc) şöbələrinin qalınlığı 1,2-

1,4 ($p > 0,05$), sahəsi 1,3 ($p > 0,05$), alveollarının (başlanğıc hissələrin) sayı 1,3-1,7 ($p > 0,05$), parenximasının (alveol və ara axacaqların) faiz tərkibi 1,1 ($p > 0,05$), alveolların (başlanğıc hissələrin) kəsikdə sahəsi isə 1,2-1,3 dəfə ($p > 0,05$) artıq hesablanılır. Eyni zamanda limfoid düyüncüklərinin qalınlığında 1,8-2,1 ($p < 0,05$), sahəsində 1,6 ($p < 0,05$), həm limfoid düyüncük, həm də diffuz limfoid toxuma tərkibində hüceyrələrin mütləq sayında 1,3 dəfə ($p > 0,05$) artım qeyd edilir; digər limfoid sırası hüceyrələrindən kiçik limfositlərin, mitotik bölünmə mərhələsində olan limfoid hüceyrələrinin, limfoblastların faiz tərkibində müvafiq meyllilik aşkarlanır [2,3]. Göstərilən bu əlamətlər sidik kisəsi selikli qişası üzrə yodlu-bromlu və bitumlu su prosedurlarının tətbiqinin effektivliyini və təhlükəsizliyini təsdiqləyir. Bu baxımdan siçovulun qırtlağının immun strukturlarına yodlu-bromlu və bitumlu su prosedurlarının təsiri haqqında əldə edilən uygun ədəbiyyat məlumatı [23] diqqətəlayiqdir. Bu istiqamətdə əldə etdiyimiz nəticələr [2,3,13,26] N.T. Mövsümovun (2002) müvafiq su prosedurlarının tətbiqindən sonra siçovulun qırtlağının vəzi aparatının, həmçinin ölçü, say göstəricilərinin artması, habelə sekretor fəaliyyətinin yüksəlməsi haqqında şəxsi tədqiqat dəlilləri ilə də üst-üstə düşür. Eyni zamanda digər elmi-tədqiqat işinin [12] yodlu-bromlu və bitumlu su prosedurlarının təsirindən sonra siçovulun nəfəs borusu və baş bronxlarının həm vəzi, həm də limfoid törəmələrinin bir sıra göstəricilərində artımla, qatı sulfid su prosedurunun təsirindən sonra isə, əksinə, azalma ilə müşahidə olunan morfometrik dəlilləri də hazırkı tədqiqatın nəticələrinə uygundur.

Hipotetik və ya fərziyyəyə əsalanan mövcud elmi mülahizəyə görə, su prosedurlarının rasional istifadəsi qeyri-spesifik təsir göstərməklə yanaşı, regenerasiya və proliferasiya proseslərini aktivləşdirir [11], vəzi epitelinin bir sıra formalaşma proseslərinə şərait yaradır [16]. Bu ekzogen faktorların istifadəsi nəinki dəri örtüyü vasitəsilə (sorulma yolu ilə), həmçinin buxarlanma yolu ilə (tənəffüs orqanları vasitəsilə) təsir göstərə bilir [11].

Zəngin mikroelement (xüsusən də, yod, brom) tərkibinə malik olan su prosedurları müxtəlif orqanlara [10, 15, 18] eləcə də vəzilərə və limfoid törəmələrinə müəyyən trofiki təsir göstərir. Məlumdur ki, hüceyrə səviyyəsində orqanizmin əlverişli uyğunlaşma (adaptasiya) potensialının qorunub saxlanılmasında antioksidant sistemi böyük rol oynayır. Bu fəaliyyətin əsasında sərbəst radikallara və endoperekis birləşmələrinə neytrallaşdırıcı təsir göstərmək və fermentlərin tərkibinə daxil olan kofermentlərin formalaşması prosesində iştirak durur. Belə ki, yodlu-bromlu və bitumlu mineral su prosedurları tərkibinə daxil olan sink, mis, mangan kimi mikroelementlər superoksiddismutaza fermentinin kofermentidir. Bundan əlavə, qeyd edilən təbii su mənbələrində aşkarlanan kalsium qlütation-reduktaza adlanan fermentin kofermentidir; qlütation-reduktaza qlütationun bərpasında və nəhayət, sonuncu selen tərkibli qlütation-peroksidazanın funksiyasının yerinə yetirilməsində iştirak edir. Antioksidant sistemə aid olan katalaza isə məlum olduğu kimi dəmir tərkibli fermentlərə aiddir. Antioksidant sistemi aktiv metobolzm prosesi fonunda endoperekis və sərbəst radikalların inaktivasiyasında iştirak edir. Bununla yanaşı, qeyd edilən sistem (müasir həyat tərzinə uyğun olaraq) daimi ekoloji gərginlik və yüklənmə şəraitində fəaliyyət göstərən sidik kisəsinin vəzi və limfoid aparatını müxtəlif faktorların zədələyici təsirlərindən qoruyur. Belə ekoloji şəraitdə mütamadi olaraq aktiv metobolizmin həyata keçməsi üçün vacib hesab edilən mikroelement çatışmazlığı baş verir. Orqanizmin bu mikroelementlərə olan yüksək tələbatı və toxumaların "qocalması" isə qeyd edilən təbii suların rasional şəkildə qəbulu ilə aradan götürülür. Qeyd etmək lazımdır ki, yodlu-bromlu və bitumlu təbii sularının qəbulunun hansı biokimyəvi və fizioloji mexanizmlər əsasında həyata keçirilməsinin dəqiqləşdirilməsi bu istiqamətdə yeni tədqiqat işlərinin aparılmasını tələb edir. Ədəbiyyat materiallarının təhlilinə əsasən, yodlu-bromlu və bitumlu mineral su prosedurları müxtəlif geniş spektrli xəstəliklərin müalicə və profilaktikasında effektiv təsir göstərir [18].

Qatı sulfidli su prosedurlarının siçovulun sidik kisəsi vəzilərinə və limfoid törəmələrinə reqressiv, aşılayıcı təsiri ilə əlaqədar olaraq, bu təbii sudan istifadə zamanı ehtiyatlı olmaq lazımdır. Belə ki, nəzarət qrupu siçovulları ilə müqayisədə eksperiment qrupunda vəzilərin alveol (başlanğıc) şöbələrinin qalınlığında 1,2-2,2 ($p < 0,05$), sahəsində 1,4-1,6 dəfə ($p < 0,05$), kəsiyə düşən alveolların (başlanğıc hissələrin) sayında 1,3-1,8 ($p < 0,05$), alveol (başlanğıc) şöbənin parenximasının faiz tərkibində 1,2 dəfə ($p > 0,05$) azalma baş verir. Eyni zamanda, alveolların (başlanğıc hissələrin) əksəriyyətində kistoz dəyişikliklər, vəzi epitelinin (qlandulositlərin) yastılaşması, stromanın tərkibində piy toxumasının artması müşahidə edilir [25]. O cümlədən, vəzi axacağı da deformasiyaya uğrayır və genişlənir; bu isə öz növbəsində vəzinin drenaj (çıxarıcı) funksiyasının pozğunluğuna, sekret durğunluğuna, sonuncu isə infeksiya prosesinə münbit şərait yaradır.

